

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 173(23.815)

21 sentyabr 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muzey ziyarətləri davam edir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin olunur. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə və təbliğinə şərait yaradır. Naxçıvan Dövlət Universiteti kollektivinin də "Muzey günləri" çərçivəsində diyarımızda fəaliyyət göstərən müxtəlif muzeylərə ekskursiyalar yolu ilə Naxçıvanın tarixi, mədəniyyəti, milli dəyərləri ilə yaxından tanış olması ənənə şəklini alıb. Kollektiv növbəti dəfə Bəhruz Kəngərli Muzeyində olub.

Muzeyin bələdçisi məlumat verərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə yaradılan muzeyin açılışında ümummilli lider Heydər Əliyev iştirak edib. Diqqətə çatdırılıb ki, 9 ekspozisiya zalı olan muzeyin fondunda, ümumilikdə, 1300-dən çox eksponat nümayiş olunur ki, bunlardan da 61-i orijinal rəsm əsəridir. Qeyd edilib ki, teatr rəssamlığı, qrafika və digər janrlara müraciət edən, portret janrında dəyərli əsərlər yaradan Bəhruz Kəngərli bütün ömrü boyu mədəniyyətimizin inkişafı naminə yorulmadan çalışıb. Onun kömür, karandaş, akvarel və yağlı boya ilə müxtəlif janrlarda yaratdığı 500-ə yaxın əsəri indi də incəsənət muzeylərinin dəyərli eksponatları sırasındadır. Rəssamın xalqımızın başına gətirilən müsibətləri, ermənilər tərəfindən doğma yurdundan zorla qovulmuş azərbaycanlı qaçqınların taleyini əks etdirən "Qaçqınlar" silsiləsinə daxil olan əsərləri Azərbaycan tarixinin dəyərli nümunələridir.

Vurğulanıb ki, sağlamlıq imkanları məhdud olan sənətkar cəmi 30 il ömür sürüb. O, maddi çətinliklərə baxmayaraq, əsərlərini sərgiləməklə kasıb ailələrin uşaqları üçün məktəb pulu toplayıb, onların təhsil almasına köməklik göstərib və yaddaşlarda təkcə rəssam kimi deyil, həm də Azərbaycan xalqının görkəmli nümayəndəsi kimi qalıb.

Bildirilib ki, Azərbaycan incəsənətinin inkişafında müstəsna xidmətləri olan Bəhruz Kəngərli qısa ömür yaşamasına baxmayaraq, təkrarsız yaradıcılığı ilə əbədiyaşarlıq qazanıb. Ulu öndər Heydər Əliyevin ***"Bəhruz Kəngərlinin əsərləri Azərbaycan dövlətinin milli sərvətidir"*** müdrik kəlamlarını xatırladan muzey bələdçisi ali təhsil ocağı əməkdaşlarını muzey eksponatları ilə tanış edib.

Qeyd edək ki, muxtar respublikada da Bəhruz Kəngərli irsi hər zaman diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" 2001-ci il 15 fevral tarixli Sərəncamı əsasən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonuna Bəhruz Kəngərlinin adı verilib, rəssamın əsərlərindən ibarət albom-kataloq hazırlanıb. Eyni zamanda rəssamın 120 illik yubileyi muxtar respublikada geniş şəkildə qeyd olunub. 2016-cı il may ayının 25-də isə Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkı istifadəyə verilib, parkda görkəmli rəssamın abidəsi ucaldılıb.

Sonda İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov görkəmli rəssamın həyat və yaradıcılığını əks etdirən rəsm əsərini universitet adından muzeyə hədiyyə edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin birgə təşkilatçılığı ilə "Rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi" istiqamətində görüşlər keçirilib.*

## "Rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi" mövzusunda görüşlər keçirilib

Tədbirlərdə diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" təsdiq edilib və həyata keçirilməsi üçün müvafiq dövlət orqanlarına tapşırıqlar verilib.



Bildirilib ki, nağdsız ödəniş pul nişanlarından istifadə etmədən ödəniş vasitələri olan ödəniş kartları, ödəniş tapşırığı, mobil telefon aparatları, kompüter və digər avadanlıqlar vasitəsilə pul vəsaitlərinin bir bank hesabından digər bank hesabına köçürülməsi yolu ilə həyata keçirilən hesablaşmadır. Ödəniş kartı ilə ticarət mərkəzlərində, iaşə obyektlərində aparılan ödənişlər elektron ödəniş aləti olan POS-terminal vasitəsilə həyata keçirilir. POS-terminal kart vasitəsilə malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, valyuta mübadiləsi əməliyyatlarının aparılması üçün nəzərdə tutulmuş avadanlıqdır.

Ödəniş vasitələri Naxçıvan şəhərində, rayon və kənd mərkəzlərində quraşdırılmaqla bu vasitələrə əhalinin əlçatanlığı təmin edilib. Belə ki, 1 sentyabr 2021-ci il tarixə muxtar respublika ərazisində quraşdırılan bankomatların sayı 117, POS-terminalların sayı isə 1481 ədəd təşkil edib. 2021-ci ilin 8 ayı ərzində muxtar respublika üzrə nağdsız ödənişlərin həcmi 75 milyon 867 min manat olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 19 milyon 571 manat artıqdır. Cari ilin 8 ayı ərzində nağdsız ödənişlərin 24 milyon 106 min manatı POS-terminallar, 51 milyon 761 manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilmişdir.

Bildirilib ki, müasir dövrümüzdə ağıllı telefonlara tətbiq olunan xüsusi proqram vasitəsilə rahat və tam təhlükəsiz qaydada kommunal xidmətlər, kredit ödənişləri, mobil rabitə üzrə ödənişlər, bir hesabdan digər hesaba vəsaitlərin köçürülməsi və digər bank xidmətlərinin həyata keçirilməsi mümkündür. "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinə məxsus ödəniş kartları üçün "CIB", "Beynəlxalq bank" ASC-yə məxsus ödəniş kartları üçün "İBA-mobile", "Kapitalbank" ASC-yə məxsus ödəniş kartları üçün isə "BirBank" mobil tətbiqindən istifadə etməklə sadalanan xidmətlərdən rahat yararlanaraq ödənişləri nağdsız qaydada və vaxta qənaət etməklə yerinə yetirmək olar.

Tədbirlərdə vətəndaşları maraqlandıran suallar cavablandırılıb və hazırlanmış bukletlər iştirakçılara paylanılıb.

Qeyd edək ki, tədbirlər muxtar respublikanın bütün rayonlarında keçirilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Birgə döyüş atışlı taktiki təlimə start verilib

Azərbaycan və Türkiyə respublikaları arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən Naxçıvanda hər iki ölkənin motoatıcı, xüsusi təyinatlı, komando və müxtəlif qoşun növlərinin iştirakı ilə "Sarsılmaz qardaşlıq - 2021" birgə döyüş atışlı taktiki təliminə start verilib. Naxçıvan Qarnizonu Qoşunlarının birləşmə və hissələrinin, Türkiyə Silahlı Qüvvələrinin bölmələrinin cəlb edildiyi təlimdə ənənəyə uyğun olaraq iki qardaş ölkənin Dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib.



Bayraqdəyişmə mərasimində iştirak etmək üçün Əlahiddə Ümumqoşun Ordunun bayraq taqımı Naxçıvan şəhərindən və eyni zamanda Türkiyə Respublikasının bayraq taqımı isə Doğu Bəyazid şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə – Araz çayı üzərindəki "Ümid" körpüsünə doğru hərəkətə başlayıb.

Bayraq taqımları "Ümid" körpüsü üzərinə çatdıqdan sonra Türkiyə və Azərbaycan respublikalarının Dövlət himnləri səsləndirilib və bayraqdəyişmə mərasimi keçirilib.

Mərasimin davamı olaraq "Ümid" körpüsündən keçən Türkiyə Silahlı Qüvvələrinin hərbi kolonu təlim rayonu istiqamətində hərəkət edib və qardaş ölkənin hərbi qulluqçuları Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində təntənəli şəkildə qarşılanıb.

**Nəriman NƏCƏFOV**

## Özəlləşdirmə sahibkarlığın inkişafına xidmət məqsədi daşıyır

***Muxtar respublikada həyata keçirilən uğurlu islahatlar çərçivəsində özəlləşdirmənin sürətləndirilməsi, bu sahəyə iş adamlarının aktiv şəkildə cəlb edilməsi, o cümlədən özəlləşdirilən müəssisələrin müasir əsaslarla yenidən qurulması və fəaliyyətinin genişləndirilməsi, özəlləşmənin iqtisadiyyatın inkişafına təsirinin artırılması əsas prioritetlərdəndir.***





Bu vəzifələri yerinə yetirmək üçün Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tədbirlərin həyata keçirilməsini davam etdirir.

Naxçıvan Muxtar Respublikasında dövlət əmlakının özəlləşdirilməsi prosesində indiyədək sənaye, ticarət, nəqliyyat və digər xidmət sahələrində 4178 kiçik dövlət müəssisə və obyekti xüsusi mülkiyyətə verilib, 55-ə yaxın orta və iri müəssisə səhmdar cəmiyyətlərinə çevrilib.

2021-ci ilin ötən dövrü ərzində 4 obyekt və 34 nəqliyyat vasitəsinin özəlləşdirilməsindən 359 min manat, ümumilikdə, özəlləşdirmə prosesi başlanandan bu günə kimi isə 20 milyon 812 min manat qanunvericiliyə uyğun olaraq dövlət büdcəsinə və təşkilatların hesabına köçürülüb.

Bu gün muxtar respublikanın kəndlərində müasir sosial obyektlərlə yanaşı, həm də xidmət mərkəzləri istifadəyə verilir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamının icrası ilə əlaqədar olaraq dövlət mülkiyyətində olan xidmət mərkəzləri və su dəyirmanlarının balansa alınması istiqamətində tədbirlər görülüb, cari ilin ötən dövrü ərzində 2 su dəyirmanı, 3 xidmət mərkəzi olmaqla, ümumilikdə, 6 su dəyirmanı və 148 xidmət mərkəzinin nazirliyin balansına alınması təmin edilib. Xidmət mərkəzləri üzrə 427, torpaq və qeyri-yaşayış sahələri üzrə sahibkarlarla, ümumilikdə, 277 icarə müqaviləsi bağlanıb.

Xidmət mərkəzi istifadəyə verilib, kəndlərdə aparılan kompleks quruculuq işləri məişət və ticarət xidmətlərinin də günün tələbinə uyğun təşkili təmin edilib. Xidmət mərkəzində bərbərxana və ərzaq-sənaye malları mağazası fəaliyyət göstərir, mağazada ərzaq məhsullarının, gündəlik tələbat və təsərrüfat mallarının satışı təşkil olunub. Özəlləşdirmə əhalinin məşğulluğunun təmin edilməsində də əhəmiyyətli rol oynayıb, yaradılan xidmət mərkəzlərində 500-dən çox şəxs işlə təmin edilmişdir.

2021-ci ilin ötən dövrü ərzində muxtar respublikada dövlət əmlakı olaraq 19 tikili və torpaq sahəsinin texniki pasportu hazırlanıb, ümumilikdə, muxtar respublika üzrə 2545 obyekt texniki pasportla təmin edilib.

Bir sözlə, iqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə prosesi muxtar respublikamızda bazar iqtisadiyyatı meyarlarının sürətlə formalaşmasına, ölkənin xarici iqtisadi əlaqələrinin yüksəlməsinə əsaslı zəmin yaradıb. Muxtar respublikamızda iqtisadi islahatların tərkib hissəsi kimi dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesinin uğurla həyata keçirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin bərqərar olunmasına və insanların həyat tərzinə böyük təsir göstərib. Özəlləşdirmə prosesinin məqsədi də məhz hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağını təmin etmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaqdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin müasir dövrün tələblərinə uyğun şəkildə bundan sonra da davam etdirilməsi muxtar respublika iqtisadiyyatının daha sürətlə inkişafına imkan yaradacaq, dövlət əmlakından səmərəli istifadəsini təmin edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

“Şərq qapısı” – 100

# Elm və təhsil sahəsinin inkişafına böyük qayğı

## (“Şərq qapısı”nın materialları əsasında)

***“Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Bu illər mənim yaddaşımdan heç vaxt silinməyəcək. Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəçiliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumaq mənim üçün çətin olmayıb”.*** *Təhsil sahəsini xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahə kimi qiymətləndirən ulu öndərimiz Heydər Əliyev ölkəmizə istər birinci, istərsə də ikinci rəhbərliyi dövründə digər bütün sahələr kimi elm və təhsil sahəsini də daim diqqət mərkəzində saxlamışdır. Muxtar respublikamızda elm və təhsil sahəsində qazanılan nailiyyətlərdə görkəmli dövlət xadiminin böyük payı olmuşdur. Onun Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illər ağır blokada vəziyyətində olan diyarımızda elm və təhsil sahəsində də dirçəlişə səbəb olub.*

Ulu öndər 1992-ci il 22-25 mart tarixlərdə Türkiyənin ovaxtkı Baş naziri Süleyman Dəmirəllə Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi barədə, 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə Əməkdaşlıq Protokolu imzalamış, bununla da gənclərimizin təhsilli yetişmələri üçün mühüm addım atılmışdır. Ölkəmizin sayılıb-seçilən ali təhsil müəssisələrindən olan Naxçıvan Dövlət Universiteti universitet kimi fəaliyyətə başladığı 1990-cı illərin ilk günlərindən ulu öndərimizin diqqət və qayğısı ilə əhatə olunub, burada dövrün yüksək tələblərinə uyğun kadr hazırlığına başlanıb. “Şərq qapısı” qəzetində dərc edilən 1999-cu il oktyabrın 11-də muxtar respublikanın 75 illik yubileyi ərəfəsində Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun təntənəli açılışında Azərbaycan Respublikasının Prezidenti ulu öndər Heydər Əliyev çıxış edərək demişdir: ***“Naxçıvan Dövlət Universitetinin bu gün mövcud olması Naxçıvanda min illər bundan öncə***



***elmin, mədəniyyətin, varlığının, inkişafının məntiqi nəticəsidir. Naxçıvan Muxtar Respublikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir... Bu yer keçmişdən, hələ qədim zamanlardan böyük bir məskən olmuşdur. Bura əvvəl rus ordusunun, sonra Sovet ordusunun, Sovet sərhəd dəstələrinin olmuşdur. Mən indi sizə məlum olan yerdə o vaxt sərhəd dəstəsi üçün qərargah, bina tikdirdim, buranı boşaltdırdım və Naxçıvan Dövlət Pedaqoji İnstitutuna verdim. Şübhəsiz ki, bizim gördüyümüz işlər öz nəticəsini verdi. Naxçıvan Dövlət Universiteti artıq özü üçün müəyyən şərait əldə etdi...”***

Çox çətin bir şəraitdə əlində olan imkanlardan istifadə edərək yalnız Azərbaycan xalqının rifah halını yaxşılaşdırmağa çalışan ulu öndərimiz Naxçıvan qazsız, elektrik enerjisiz, susuz, yolsuz qalanda da bunu Naxçıvan üçün etdi. 1993-cü ildə yenidən Azərbaycana rəhbər seçiləndən sonra ölkəmizin hər yerinə, hər bir universitetinə, o cümlədən Naxçıvan Dövlət Universitetinə də qayğı göstərdi. Məhz bunun hesabına Naxçıvan blokada şəraitində də əyilmədi, dözdü, yaşadı... Sevindiricidir ki, bu gün Naxçıvan Dövlət Universiteti ulu öndərin işıqlı ideyaları ilə yolunu davam etdirir. Dünyanın bir çox ölkələrindən təhsil almaq üçün buraya tələbələr gəlir və bu universitet dünyanın başqa universitetləri ilə elm, təhsil və başqa sahələrdə əməkdaşlıq əlaqələri saxlayır.

***“Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun, kasıb təhsilə əsaslanırsa, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu mənim prinsipial mövqeyimdir”***, – deyən ulu öndər Heydər Əliyev gələcək perspektiv naminə təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çox ciddi islahatlar həyata keçirmişdir. Ümummilli liderin “Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında” 2003-cü il 17 fevral tarixli Sərəncamı istiqamətində görülən işlər hesabına yeni-yeni məktəb binaları qurulub istifadəyə verilmişdir. Ulu öndərin “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 2000-ci il 13 iyun tarixli Fərmanı ilə Azərbaycan Müəllimlər İnstitutu və onun 12 bölgədə regional filialları yaradılmışdır. Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlayan Naxçıvan Müəllimlər İnstitutu da məhz bu qayğı və diqqətin bəhrəsi kimi yaradılmış, ixtisaslı müəllim kadrların hazırlanması işində mühüm rol oynamışdır. Naxçıvan Müəllimlər İnstitutu 2003-cü il 26 avqust tarixindən müstəqil institut kimi fəaliyyətini uğurla davam etdirir.

“Şərq qapısı” qəzetində dərc olunan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının 1999-cu il 13 oktyabr tarixdə açılışında ulu öndər Heydər Əliyevin bu sözlərini oxuyuruq: ***“Burada təhsilə başlayan gənclərimizə, bütün Azərbaycan gənclərinə üzümü tutub deyirəm ki, cəmiyyətdə hər bir peşə lazımlıdır, hörmətlidir, cəmiyyət üçün faydalıdır. Ancaq vətəni qorumaq peşəsi bu peşələrin hamısından yüksəkdir. Özünü bu peşəyə həsr edən hər bir Azərbaycan gənci bütün gənclərdən yüksəkdə durur, bütün gənclərdən qiymətlidir. Çünki müstəqil dövlətimiz, müstəqil Azərbaycan yaşamalıdır, inkişaf etməlidir. Onun çox güclü ordusu bu gün də, gələcəkdə də olmalıdır. Olmalıdır ki, torpaqlarımız bundan sonra heç bir tərəfdən işğal edilməsin. Olmalıdır ki, torpaqlarımızın hər bir qarışı qoruna bilsin...”*** Bu gün ulu öndərimiz Heydər Əliyevin adını ləyaqətlə daşıyan liseydə elə hərbi təhsilli gənclərimiz yetişir ki, onlar ordumuzun tərkibində xüsusi peşəkarlıqla xidmət edir, torpaqlarımızın hər bir qarışını qoruyurlar. Qeyd edək ki, ötən il Vətən müharibəsində əldə etdiyimiz böyük Qələbədə bu liseyin məzunları da böyük rol oynamış, öz canları-qanları bahasına torpaqlarımızı düşmən tapdağından azad etmiş, şəhidlik adlı uca məqama yüksəlmişlər.

Muxtar respublikamızda təhsil kimi elm sahəsinin də inkişafı görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Dahi lider Naxçıvanda elmin inkişafının zəruriliyini belə ifadə etmişdir: ***“...Vaxtilə Sovet İttifaqı yarananda, müttəfiq respublikalar yarananda, onların arasında sərhədlər qoyulanda Azərbaycan torpaqlarının bir qismi Ermənistana verilibdir və bunun nəticəsində də Naxçıvan Muxtar Respublikası ərazicə Azərbaycanın əsas torpağından aralı düşübdür. Bunların hamısı Naxçıvanın çox ətraflı öyrənilməsini tələb edir”.*** Elə bu səbəbdən də 2002-ci il avqustun 12-də müdrik rəhbərin sədrliyi ilə Naxçıvan Ali Məclisinin iclas salonunda AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirə keçirilmişdir. Azərbaycan elminə mühüm töhfə kimi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ümummilli liderimiz Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli “Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında” Sərəncamına müvafiq olaraq yaradılıb. Bölmənin yaradılmasının zəruriliyindən bəhs edən ümummilli lider demişdir: ***“Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də, düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var”.*** Qəzetin 2003-cü il avqustun 26-da dərc olunmuş nömrəsində oxuyuruq ki, AMEA Naxçıvan Bölməsinin Rəyasət heyəti və elmi-tədqiqat institutları üçün bina istifadəyə verilmiş, avqustun 23-də bu münasibətlə keçirilən tədbirdə Ali Məclisin Sədri çıxış edərək demişdir:



***“...Naxçıvanın hər daşı, hər qayası bir tarixi abidədir. Naxçıvan Azərbaycanın Uralıdır və möhtərəm Prezidentimizin sözləri ilə desək, Naxçıvan tarixi abidələri özündə birləşdirən qədim Azərbaycanın torpağıdır. Bunların hamısının tədqiqata, araşdırmalara ehtiyacı vardır. Yəni bu bölmədə yaradılmış, Bioresurslar və Təbii Ehtiyatlar, Tarix, Etnoqrafiya və Arxeologiya, Dil və ədəbiyyat, Etnoqrafiya və Arxeologiya, İncəsənət institutlarının, Batabat Astrofizika Rəsədxana və Əlyazmaları fondunun hərtərəfli fəaliyyəti üçün geniş imkanlar mövcuddur. Naxçıvanda yerin altı da, üstü də tarixdir. Naxçıvanda çox qədim tarixə malik olan mədəniyyət nümunələri aşkar edilib. Həmin nümunələr hələ min il əvvəl burada mövcud olan elmin nişanələridir...”***

80-ci illərin sonu, 90-cı illərin əvvəlində Azərbaycan elminə vurulan olduqca ağır zərbələr nəticəsində böyük elm xadimlərimiz, ziyalılarımız respublikamızı tərk etməyə məcbur olmuşdular. Azərbaycan elmini dağılmaqdan xilas edən ulu öndərimizin elmə qayğısı hesabına sonralar həmin alimlərin bir çoxu geri qayıdaraq Azərbaycan elminin inkişafına öz töhfələrini verdilər. 2005-ci il mayın 10-da AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutu üçün yeni korpusunun açılış mərasimində Ali Məclisin Sədri demişdir: ***“Azərbaycan elminin inkişafı ümummilli liderimizin siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlı olmuşdur. Əgər möhtərəm Heydər Əliyevin 35 illik dövlətçilik fəaliyyəti vahid bir tam kimi götürülsə, heç şübhəsiz ki, maarifçilik, elm və təhsilin inkişafı bu müstəvidə qırmızı xətlə keçəcəkdir...”*** Məlumat üçün bildirək ki, 2003-cü ilin yanvarında 139 əməkdaşla, o cümlədən 51 elmi işçi ilə fəaliyyətə başlayan AMEA Naxçıvan Bölməsinin kadr potensialının artırılması istiqamətində həyata keçirilən tədbirlər hesabına bu gün bölmədə işçilərin ümumi sayı 256, elmi işçilərin sayı 97 nəfərə çatmışdır. Elmi işçilərdən 2-si AMEA-nın həqiqi, 4-ü isə müxbir üzvü, 4-ü elmlər doktoru, 53-ü fəlsəfə doktorudur ki, bu da fəaliyyət göstərən elmi potensialın 68,5 faizini təşkil edir. Elmi əməkdaşların 47-nin 6-sı professor, 41-i dosentdir. 2006-cı ildən bu günə kimi AMEA Naxçıvan Bölməsində Vətən tarixi və Arxeologiya ixtisasları üzrə elmlər doktoru, Fiziki kimya və Qeyri-üzvi kimya ixtisasları üzrə isə fəlsəfə doktoru Dissertasiya Şuraları yaradılıb. Bölmənin fəaliyyəti dövründə şuralarda 15 nəfər elmlər, 94 nəfər isə fəlsəfə doktorluğu alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsində, ciddi elmi nailiyyətlərin əldə edilməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin verdiyi müvafiq sərəncamlar da əsaslı rol oynamışdır. Muxtar respublika ərazisində aparılan məqsədyönlü tədqiqatlar nəticəsində Naxçıvanda ilkin yaşayış və mədəniyyətin tarixinə dair ciddi nəticələr əldə edilmiş, çoxsaylı abidələr qeydə alınmış və pasportlaşdırılmış, həyatı və şəxsiyyəti qaranlıq qalan neçə tarixi şəxsiyyət öyrənilmiş, xalq yaradıcılığının müxtəlif sahələrinin öyrənilməsi, tədqiqi, təbliği və nəşri məsələləri uğurla həyata keçirilmiş, Naxçıvanın tarixini öyrənmək işində mühüm rol oynayan kitab və jurnallar dərc olunmuş, beynəlxalq simpoziumlar keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında” 2019-cu il 7 sentyabr tarixli Sərəncamı muxtar respublika rəhbərinin elmə, elm adamlarına göstərdiyi diqqət və qayğının bariz ifadəsi olmaqla həm də muxtar respublikamızda elm adamlarının inkişafına, yeni-yeni tədqiqat işləri aparmalarına böyük stimul vermişdir. Ölkəmizdə elmə göstərilən qayğının digər bir təzahürü isə Prezident cənab İlham Əliyevin Sərəncamı ilə martın 27-nin “Elm Günü” kimi təsis edilməsidir.

***“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin”***, – deyən ulu öndərimizin yolunu layiqli şəkildə, böyük əzm və cəsarətlə davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun uzaqgörənliyi və müdrikliyi sayəsində muxtar respublikamızda son 30 ildə bütün sahələrdə, eləcə də elm və təhsil sahəsində böyük işlər görülmüş, bu sahələr inkişafın ən yüksək zirvəsinə qaldırılmışdır. Muxtar respublikada elm və təhsilin inkişafı istiqamətində aparılan uğurlu siyasətin real bəhrələri isə bu il 100 yaşını dövlət səviyyəsində qeyd etdiyimiz, diyarımızın mətbuat salnaməsi sayılan doğma “Şərq qapısı” qəzetinin səhifələrində layiqincə işıqlandırılmışdır.

✍ Güntac ŞAHMƏMMƏDLİ

## Elmi konfrans keçirilib



***AMEA Naxçıvan Bölməsində AMEA-nın müxbir üzvü, professor Kərim Kərimovun anadan olmasının 100 illiyi münasibətilə “Sənətşünaslıq elminin görkəmli siması” mövzusunda elmi konfrans keçirilib.***

Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev xatırladıb ki, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti 9 iyul 2021-ci il tarixdə AMEA-nın müxbir üzvü Kərim Kərimovun Azərbaycan sənətşünaslıq elminin inkişafındakı xidmətlərini nəzərə alaraq və 100 illik yubileyi münasibətilə bu yubileyin qeyd olunması ilə bağlı xüsusi qərar imzalamışdır.

Akademik çıxışında professor Kərim Kərimovun yaradıcılıq yoluna qısa nəzər salaraq onun Azərbaycan sənətşünaslıq elminin, miniatür sənətinin tədqiqi və inkişafında olan mühüm rolunu konfrans iştirakçılarının diqqətinə çatdırıb. Vurğulanıb ki, miniatürşünaslıq elminin mahir tədqiqatçısı Kərim Kərimov nəinki Azərbaycanda, eləcə də ölkə hüdudlarından kənarda da mədəni abidələrimizin əsl təbliğatçısı kimi nümunəvi həyat və yaradıcılıq yolu keçmişdir.

Konfransda onlayn iştirak edən AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, professor Kərim Kərimov Azərbaycan sənətşünaslığı elmində zəngin irs qoymuş alimlərdən biridir. Miniatürşünaslıq elminin ilkin təməyüllərinin formalaşması, miniatür sənətinin dərindən öyrənilməsi istedadlı alimin Azərbaycan elmi və mədəniyyəti qarşısında ən böyük xidmətlərindəndir. Azərbaycan realist rəssamlıq məktəbinin tanınmış nümayəndəsi Bəhruz Kəngərli haqqında ilk və zəngin tədqiqatlar da məhz Kərim Kərimov qələmi ilə ərsəyə gəlmişdir.

AMEA-nın akademik-katibi, akademik Arif Həşimov çıxışında alimin yaradıcılığının əsas məqamlarını təhlil edib. Azərbaycan elminin davamlı inkişafını təmin etmək üçün elmi və tarixi irsimizin qorunub saxlanılmasının önəmini vurğulayıb.

Naxçıvan Rəssamlar Birliyinin Baş fond müdiri, dosent Nizami Alıyev konfransda “Professor Kərim Kərimovun həyatı və yaradıcılıq yolu” mövzusunda məruzə edib. Məruzədə qeyd olunub ki, milli sənətşünaslıq elminin banilərindən olan Kərim Kərimov xalqını, vətənini sevən, nəcib ruhlu alim olmuşdur. Bu xətt onun apardığı tədqiqatlarda, elmi həqiqətlərin dünyaya bəyan olunmasında açıq-aşkar təzahür edir.

Alimin tədqiqatlarında XVIII-XIX əsr rus rəssamlarının yaradıcılığında Azərbaycan mövzusunun araşdırılması mühüm yer tutmuş, həmin əsərləri geniş aspektdə təhlil etmişdir.

Konfransda AMEA Memarlıq və İncəsənət İnstitutunun əməkdaşı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Xəzər Zeynalov, Naxçıvan Müəllimlər İnstitutunun kafedra müdiri, dosent Həbibə Allahverdiyeva və AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı Şəmsiyyə Zalova çıxış edərək alimin həyat və yaradıcılığının müxtəlif dövrlərini təhlil ediblər.

*AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti*

*21 sentyabr Beynəlxalq Sülh Günüdür*

# Sülh inkişafın əsas təməlidir

***Mahiyyətcə dinclik, əmin-amanlıq, qurub-yaratmaq, sosial, iqtisadi və mədəni inkişaf, insanların və insanlığın birlik və bərabərlik şəraitində yaşamasını özündə ehtiva edən sülh bəşəri məfhumdur. Sülh hər bir cəmiyyətin, ümumiyyətlə, bəşəriyyətin ən çox arzu etdiyi dəyərlərdəndir. Sülhün qorunması, insanların əmin-amanlıqda yaşaması, amansız müharibələrin, hər cür zorakılığın dayandırılması arzusu bütün tarixboyu bəşəriyyəti düşündürmüşdür. Bu mənada, əslində, sülhün günü olmur, çünki o, insanlığa hər gün lazımdır. Birləşmiş Millətlər Təşkilatı 1981-ci ildə 21 sentyabrın "Beynəlxalq Sülh Günü" kimi qeyd olunması barədə Qərar qəbul etmişdir. Həmin tarixdən etibarən 21 sentyabr bütün dünyada "Beynəlxalq Sülh Günü" kimi qeyd olunur.***

Beynəlxalq Sülh Günü insanların sülh şəraitində yaşamaq hüququ ilə yanaşı, bütün insan hüquq və azadlıqlarının gerçəkləşməsini, hər bir istəyə yalnız sülh şəraitində çatmağın mümkünlüyünü, eyni zamanda inkişaf, tərəqqi və bəşəri təhlükəsizliyi təcəssüm etdirir. İnsanlar arasında sülh dəyərlərini yaymaq, sülh mədəniyyətini təbliğ etmək zəruridir. Bu proses hər ölkədə və regionda onun tarixindən, mədəniyyətindən və ənənələrindən asılı olaraq özünəməxsus şəkildə inkişaf etdirilir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra bəşəriyyətə qarşı törədilmiş dəhşətli cinayət olan Xocalı soyqırımının əsl mahiyyəti açılmış və 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisində Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilmişdir. Ulu öndər böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını almış, 1994-cü ilin mayında atəşkəs haqqında müqaviləni imzalamaqla müharibənin müvəqqəti də olsa, dayandırılmasına nail olmuşdur. Bu isə, təbii ki, insan tələfatının qarşısının alınması ilə bərabər, regionda sabitliyin yaranması, ölkəmizin iqtisadi və hərbi gücünün artmasına səbəb olmuşdur.

Ulu öndər həmin dövrdə beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın ərazilərinə hərbi təcavüzünə yönəltmiş, münaqişənin sülh yolu ilə həll olunması istiqamətində ardıcıl tədbirlər görmüşdür. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi üçün 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmişdir. Bundan başqa, ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində də bir sıra mühüm təkliflər irəli sürülmüşdür. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon Zirvə Görüşü zamanı ümummilli liderin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi dünyanın haqq və ədalət hissini itirməyən 53 dövləti tərəfindən qəbul və müdafiə olunmuş, xalqımıza qarşı törədilmiş faciələr, soyqırımı aktları tanınmışdır.

Böyük şəxsiyyətin rəhbərliyi ilə hazırlanmış və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının preambula hissəsində ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək Azərbaycan dövlətinin ən ülvi niyyəti kimi təsbit olunmuşdur. Ümummilli lider Heydər Əliyevin sülhün və əmin-amanlığın əldə edilməsi istiqamətindəki əvəzsiz xidmətləri bütün dünya xalqları tərəfindən yüksək qiymətləndirilmiş, dahi şəxsiyyət 1999-cu il noyabrın 1-də Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülmüşdür.

Dahi şəxsiyyətin sülhsevər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan bu gün öz iqtisadi qüdrətini daim artıran, eyni zamanda mütərəqqi beynəlxalq normalara uyğun insan hüquq və azadlıqları sistemini formalaşdıran dövlətə çevrilmişdir. *"Azərbaycan sülhün, təhlükəsizliyin qarantıdır"*, – deyən dövlət başçısının apardığı gərgin daxili və xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu artmış, dünya dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq işini dəstəkləyərək, ölkəmizin ərazi bütövlüyünü tanımışdır.

Cənubi Qafqazda ən qüdrətli və güclü orduya malik olan ölkəmiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüququn hamılıqla tanınmış ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında qeyd-şərtsiz həll olunması sahəsində zəruri addımlar atmışdır. Bütün bunlara baxmayaraq, 2020-ci ilin 27 sentyabr tarixindən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı həyata keçirdiyi növbəti hərbi təcavüz aktı nəticəsində mülki əhali arasında tələfat olmuş, təhsil və səhiyyə müəssisələri, sosial, mədəni, tarixi, dini obyektlər ağır artilleriya qurğularından və qadağan olunmuş silahlardan istifadə edilməklə dağıdılmışdır. Ölkəmiz erməni təxribatının qarşısını almaq məqsədilə Vətən müharibəsinə başlamış və rəşadətli ordumuz 30 il işğal altında olan torpaqlarımızı azad edərək tarixi qələbə qazanmışdır. Azərbaycan Ordusunun gücü, Vətən oğullarının qətiyyəti qarşısında davam gətirə bilməyən düşmən noyabrın 10-da kapitulyasiya haqqında Bəyanatı imzalamağa məcbur oldu. Ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində də mir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik".***

Üçtərəfli Bəyanatın 9-cu bəndində qeyd olunduğu kimi, regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir, bölgədə yerləşən dövlətlərin vətəndaşlarının, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə yaradılacaq dəhliz vasitəsilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsi bərpa olunur. Dəhliz region dövlətlərinin istifadəsi üçün zəmin yaradacaq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə Naxçıvan blokada şəraitində inkişafın əsl nümunəsini ortaya qoyaraq Azərbaycanın sürətlə tərəqqi edən diyarına çevrilmişdir. Sülh və əmin-amanlıq şəraitində daxili imkanlardan və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, həyata keçirilən sabitləşmə, dönüş və inkişaf konsepsiyası iqtisadi və sosial müstəvidə yüksələn xətlə davam etdirilmiş, məqsədyönlü və davamlı inkişaf nəticəsində sabitlik qorunub saxlanılmışdır. Ötən dövrdə muxtar respublikada iqtisadiyyatın və sənayenin bütün sahələrinin inkişafı, istehsal və xidmət sahələrinin yaradılması, yeni iş yerlərinin açılması, yaşayış məntəqələrinin abadlaşdırılması, ərzaq və enerji təhlükəsizliyinin, səmərəli məşğulluğun təmin edilməsi, əhalinin maddi rifah halının yaxşılaşdırılması, muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafının bariz nümunəsidir. Təhlükəsizliyin carçısı rolunda çıxış edən Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması isə Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə verilən yüksək qiymətin təzahürüdür.

Bu gün öz ərazi bütövlüyünü bərpa edən müstəqil Azərbaycan sülhün keşiyində duran, hər zaman qədim dövlətçilik ənənələrinə, eyni zamanda beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə sadiq olan hüquqi dövlətdir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: ***"Azad və demokratik cəmiyyət quruculuğu yolunda qətiyyətli addımlarını atan və geosiyasi cəhətdən olduqca həssas bölgədə yerləşən müstəqil Azərbaycan Respublikası üçün sülhün, sabitliyin hökm sürdüyü təhlükəsiz mühit həyati əhəmiyyət kəsb edən bir məsələdir".***

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## "Naxçıvanın səsi" radiosunun 20 illiyi qeyd olunub, Televiziya və Radio Verilişləri Redaksiyasına yeni avadanlıqlar təqdim edilib

*Dünən "Naxçıvanın səsi" radiosunun 20 illiyi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Televiziya və Radio Verilişləri Redaksiyasına alınan yeni avadanlıqların təqdimatı ilə bağlı tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək təhsilə göstərilən dövlət qayğısından, təhsildə tətbiq edilən innovasiyalardan danışıb. Bildirib ki, muxtar respublikada aparılan uğurlu təhsil siyasəti təhsil mühitində innovativ yanaşmaların tətbiqini təmin etməklə yanaşı, bu sahənin inkişafına da öz müsbət təsirini göstərməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyasının Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilməsi muxtar respublikada təhsilə göstərilən dövlət qayğısının növbəti bariz nümunəsi olmaqla, təhsilin informasiyalaşdırılmasında yeni bir mərhələ təşkil etmişdir.

Qeyd olunub ki, 2021-ci il yanvarın 1-dən etibarən "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosu təhsillə bağlı televiziya və radio proqramlarını hazırlayan və yayımını həyata keçirən teleradio yayımçısı kimi fəaliyyətini davam etdirir və muxtar respublikanın təhsil müəssisələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Qısa müddət ərzində hər bir təhsil pilləsinə uyğun verilişlər, innovativ təlim metodlarına uyğun teledərslər, tariximizi, mədəniyyətimizi əks etdirən, görkəmli şəxsiyyətlərlə bağlı maarifləndirici teleradio proqramları hazırlanaraq yayımlanmışdır. Ötən müddət ərzində redaksiyanın tədrisyönümlü fəaliyyət göstərməsi şagirdlərin asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, onların maariflənməsinə, yeni biliklər almasına, yaxud əldə etdikləri bilikləri zənginləşdirmələrinə geniş imkan yaratmışdır.

Diqqətə çatdırılıb ki, "Naxçıvanın səsi" radiosunun yayıma başlamasından ötən 20 il ərzində radio böyük





inkişaf yolu keçmişdir. 2021-ci ilin may ayından radionun efir vaxtı və fəaliyyətinin gücləndirilməsi məqsədilə ştatı artırılmışdır. "Naxçıvanın səsi"nin dayanıqlı yayımla təmin olunması və yayım keyfiyyətinin artırılması məqsədilə Sədərək və Duzdağ Radio-Televiziya Ötürücü stansiyaları müasir standartlara cavab verən avtomatik kökləmə sistemi ilə təchiz olunmuş, nəticədə, sərhədyanı ərazilərdə də "Naxçıvanın səsi" radiosunun daha keyfiyyətlə yayımlanması təmin edilmişdir. Bu qayğının davamı olaraq Televiziya və Radio Verilişləri Redaksiyasına 12 adda 22 yeni televiziya avadanlığı alınmışdır. Yeni avadanlıqlar yaradıcılıq imkanlarının genişləndirilməsi və fəaliyyətin gücləndirilməsinə öz töhfəsini verəcəkdir.

Nazir "Naxçıvanın səsi" radiosunun 20 illiyi münasibətilə kollektivi təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb, Televiziya və Radio Verilişləri Redaksiyasının fəaliyyəti üçün yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri Rauf Əliyev çıxış edərək bildirib ki, müxtəlif səpkili proqramlar hazırlamaq, həmin proqramların son dərəcə rəngarəng və aktual olmasını təmin etmək prinsipini əsas götürən, dinləyicilərin könlünə yol tapan "Naxçıvanın səsi" həm də yenitipli yaradıcı və texniki heyətə malik olan ciddi və səmimi bir kollektiv kimi özünün işğuzar mühitini və geniş dinləyici auditoriyasını formalaşdıra bilmişdir. Bu radio qədim və həmişəcavan diyarımızda müstəqillik dövrünün etibarlı carçısı kimi yolunu uğurla davam etdirir. Daim axtarışlarda olan, dinləyici zövqü ilə üst-üstə düşən verilişlər hazırlamağa səy göstərən kollektiv əksər hallarda buna nail olur. "Naxçıvanın səsi" bu gün, əsasən, təhsilyönümlü, musiqili-əyləncəli radiodur. Amma öz işini təkcə bununla məhdudlaşdırmır. Əhəmiyyətli və diqqətçəkən proqramlarla efirə çıxan radio həm də müxtəlif sahələri əhatə edən verilişlər hazırlayır.

Diqqətə çatdırılıb ki, 2021-ci ildə "Naxçıvanın səsi" radiosu 2 min 713 saat efirdə olmuş və efirin 527 saatını canlı yayım proqramları təşkil etmişdir. Bu da yüksək göstərici hesab edilir. Çünki canlı yayımlanan verilişləri efirə vermək üçün yüksək peşəkarlıq tələb olunur.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Televiziya və Radio Verilişləri Redaksiyasının baş redaktoru Ramal Məmişov çıxışında vurğulayıb ki, kütləvi informasiya orqanlarının inkişafına göstərilən dövlət qayğısı nəticəsində redaksiyanın maddi-texniki bazası mərhələli şəkildə yenilənmiş, əməkdaşların yaradıcılıq imkanları artırılmışdır.

Qeyd olunub ki, redaksiyanın əsas fəaliyyət istiqamətlərindən biri də hər bir təhsil pilləsinə uyğun teleradio layihələrinin hazırlanması, ümumtəhsil məktəblərində tədris olunan fənlər, eləcə də innovativ təlim metodları üzrə teledərslərin hazırlanması, muxtar respublikanın təhsil müəssisələri ilə qarşılıqlı şəkildə təhsil ictimaiyyətinə maraqlı, əhatəli, baxımlı telelayihələri təqdim etməkdir. Alınan avadanlıqlar isə gələcəkdə efir keyfiyyətini və yaradıcı işi daha da yüksəldəcək, geniş layihələr üzərində işləyə bilmələrinə geniş imkanlar yaradacaqdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Televiziya və Radio Verilişləri Redaksiyasının əməkdaşı Günel Mustafayeva çıxış edərək bildirib ki, "Naxçıvanın səsi" radiosunun hədəfi muxtar respublikada həyata keçirilən təhsil siyasətini, təhsil quruculuğunu, cəmiyyətin elm və təhsil üzrə ümumi maraqlarının təmin edilməsini təbliğ edən yeni layihələr hazırlamaqdır.

Sonra Azərbaycan Televiziyasının Teleradio Akademiyası və Türkiyənin Sivas Cümhuriyyət Universitetinin birgə reallaşdırdığı tədris proqramında iştirak edən redaksiyanın bir sıra əməkdaşlarına sertifikatlar və Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə media nümayəndələri arasında keçirilən "Qalib əsgərin müəllimi" videohekayə müsabiqəsində qalib olan redaksiyanın əməkdaşı Əzim Cəfərliyə diplom və hədiyyə təqdim edilib. Həmçinin muxtar respublikada həyata keçirilən təhsil siyasəti, milli-mənəvi dəyərlərin təbliği, vətənpərvərlik mövzusunda teleradio proqramlarının hazırlanmasında səmərəli fəaliyyətinə görə Televiziya və Radio Verilişləri Redaksiyasının kollektivi Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşəkkürnaməsi, fəaliyyəti ilə seçilən əməkdaşlar isə fəxri fərman ilə təltif olunub, onlara qiymətli hədiyyə təqdim edilib.

Sonra "Naxçıvanın səsi" radiosunun 20 illiyi münasibətilə hazırlanan "20 ilin səsi" filminə baxış olub.

Tədbirin sonunda alınan avadanlıqlara baxış olub. Qeyd edək ki, redaksiyaya videoçəkilişlər üçün 2 ədəd kamera, səyyar çəkiliş üçün 2 ədəd ştativ, 1 dəst mikrofon, montaj üçün 2 dəst kompüter, ekran və yaddaş kartları alınıb.

Hazırda teledərslərin keçirilməsi və dəyirmi masaların təşkili üçün isə mebel və dekorasiyaları ibarət studiyanın qurulması üzərində işlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Əfsanəyə dönən ömürlər*

# Vətən ona oğul dedi

*2020-ci il noyabr ayının 2-də Naxçıvan Beynəlxalq Hava Limanında bu qədim Oğuz yurdunda qəhrəmanlıq dərsi keçmiş, Qarabağda azadlıq mücadiləsində ən yüksək məqama ucalmış şəhidlərimizin qarşılanması naxçıvanlıların öz igid həmyerlilərinə böyük ehtiramlarının ifadəsi idi.*



...Həmin gün Ordubad rayonunun Azadkənd qəbiristanlığı, bəlkə də, mövcudluğu dövründə bu qədər insanın bir mərhumu torpağa tapşırmağa gəldiyini görməmişdi. Məzarlığın sağından Azadkəndə girən yol da adamlarla dolmuşdu. Şəhid Namiq Xəlillini torpağa tapşırmağa – son mənzilə yola salmağa gəlmişdilər rayonun, muxtar respublikanın hər yerindən. Atası Həsən Xəlilovun sözlərini qatillərə ölüm hökmü saydıq həmin gün:

– Namiq ölməyib. Onun yüzlərlə davamçıları var – ordumuzda, hərbi məktəblərimizdə, elə mülki şəxslərimiz içərisində. Ona görə ki, torpağını, yurdunu özünün namusu hesab edir, arxasında güclü komandanın durduğunu, hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu bilir.

Bu anda yaşadığım qüruru qələmə almağa gücüm çatmır və düşünürəm ki, ancaq belə valideynlərin yetişdirdikləri övladlar düşmən tapdağında qalmış torpaqlarımızı işğaldan azad etməyə qadir ola bilər və necə ki oldu.

Namiq Xəlillinin Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyi bitirdiyini bilirdim. Onu da bilirdim ki, liseyi yüksək qiymətlərlə başa vurub, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirib. Buranı bitirdikdən sonra hərbi qulluğa başlayıb.

Onu da deyim ki, 2020-ci il sentyabr ayının 27-dək bu liseyin 8 məzunu şəhidlik zirvəsinə ucalıb. Onlar üçün liseydə guşə yaradılıb. Guşədə həmin şəhidlərin keçdikləri şərəfli yol haqqında geniş məlumatlar öz əksini tapıb. Bu yazını qələmə alarkən liseylə əlaqə saxladım. Liseyin Tədris şöbə rəisinin müavini, mayor Hikmət Hacıyevlə telefon söhbəti etdik. Çalışdığı məktəbdə ilk hərbi təhsil almış məzunlarının qazandığı tarixi Qələbədə bir çox şücaətlər göstərdiklərini ona xatırlatdım, belə hərbçilərlə xalqımızın qürur duyduğunu dedim. Hikmət müəllim sözünə gözəl şairimiz Məmməd Arazın misralarıyla başladı:

*Bu gün gərək hər anımız "Vətən" desin!*
*Qılıncımız, qalxanımız "Vətən" desin!*
*Ölənlərin əvəzinə qalanımız "Vətən" desin!*
*Qəlbimizin hər duyğusu, hər vurğusu "Vətən" desin!*

Hər anımızın, qılıncımızın, qalxanımızın, duyğumuzun Vətən deməsini 44 gün ərzində təkcə Azərbaycan deyil, bütün dünya gördü, Odlar Yurdunun öz torpağına bağlılığını gördü, oğullarımızın vətənpərvərliyini gördü. Bu gün ərazi bütövlüyümüz uğrunda şəhidlik zirvəsi qazanan gənclərimizin böyük Qələbəmizi görməmələri qəlbimizi nə qədər ağrıdırsa, onların həyatda yoxluğu ürəyimizi nə qədər göynədirsə, ölkəmizin, xalqımızın bundan sonra əmin-amanlıqla yaşayacağına sevinirik. Bu sevinci bizə bəxş edənlər içərisində bizim də məzunlarımız az deyil. Onlardan biri Namiq Xəlilli idi. Əlaçı, liseyin daxili nizam-intizam qaydalarına yüksək səviyyədə əməl edən Namiq burada oxuduğu müddətdə kollektivin sevimlisinə çevrilmişdi. Liseydaxili tədbirlərdə, muxtar respublikada keçirilən idman yarışlarında, fənn olimpiadalarında xeyli uğurlar qazanmışdı. Zahirən sakit görünsə də, təbiətən çılğın idi.

Bu gün Namiq təhsil aldığı orta məktəb, hərbi lisey və hərbi məktəblə yanaşı, doğulub boya-başa çatdığı Azadkəndin də adını ucaldıb.

Azadkənd tam orta məktəbinin hərbi rəhbəri Akif Abbasquliyev deyir ki, gənclərin çağırışaqədərki hazırlığı dərslərində Namiq həmişə fəallıq göstərərdi. Bütün fənləri yaxşı oxumaqla bərabər, bu fənnə ciddi yanaşmağı onu hərbçiliyə gətirib çıxardı. Bu gün məktəbin hərbi kabinəsində Azadkənd şəhidlərinin xatirəsinə səyyar guşə düzəltmişik. Guşədə şəhidlərlə bağlı maraqlı materiallar var. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbindən Namiq Xəlilli barədə göndərilmiş təşəkkür məktubu Azadkəndin hər bir sakinində qürur yaradır, hər bir məktəblini onun kimi vətənpərvər olmağa səsləyir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 15 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş baş leytenant Xəlilli Namiq Həsən oğlu (ölümündən sonra) "Vətən uğrunda" medalı ilə təltif olunub.

...Bu gün Namiq, onun məsləkdaşları – bu xalqın şəhid oğulları Qələbə meydanının qəhrəmanlarıdır. Onlar Qələbə tarixini şirin canları ilə yazdılar. Tarix də onları öz səhifələrinə qızıl hərflərlə yazıb. Bu tarix əbədidir. Bu tarixi onlar bizə yaşatdılar. Çingiz, Namiq, Raqib, İbrahim, Saday, Ayaz, Ceyhun, Bağır....

**Muxtar MƏMMƏDOV**

*İdman xəbərləri*

## Naxçıvanda *"Grassroots"* həftəsi keçirilib



*Avropa Futbol Assosiasiyaları İttifaqına (UEFA) üzv olan dövlətlərdə uşaq futbolu ilə bağlı tətbiq olunan "Grassroots" proqramına əsasən "kütləvi futbol həftəsi" (Grassroots week) və "Futboldan həzz al" (Enjoy with football) layihəsinə start verilib. Naxçıvandan başlayan layihə ölkəmizin bir neçə regionunu da əhatə edəcək.*

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman, Təhsil nazirlikləri və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə Uzunoba Təlim-Məşq İdman Kompleksində keçirilən festivalda 100-dək məktəbli iştirak edib. Kompleksin böyük və mini-futbol meydançalarında maraqlı və əyləncəli oyunların əhatə edən sektorlarda uşaqlar öz bacarıqlarını müxtəlif topluoyunlarda nümayiş etdiriblər. İştirakçıların "face art"la (üz boyama sənəti) bəzənən simaları, diceyin (DJ) müşayiəti ilə səslənən dinamik musiqilər əyləncəni daha da rəngarəng edib. Sonda hər bir məktəbliyə layihəni əks etdirən futbol topları hədiyyə olunub.

Tədbirdən sonra AFFA-nın Kütləvi Futbol Departamentinin rəhbəri Fərrux İsmayılov layihə barədə fikirlərini bildirib: "Bu layihənin həyata keçirilməsində məqsəd futbolun kütləviliyini artırmaq, uşaqların və yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili, onlarda futbola maraq yaratmaq və sağlam həyat tərzini təbliğ etməkdir. Muxtar respublikada layihəni həyata keçirmək üçün hər bir şərait var. Layihə çərçivəsində, eyni zamanda yeni kateqoriya alan futbol məşqçiləri də iştirak etdi. Ötən dövrdə olduğu kimi, bu layihədə də Gənclər və İdman, Təhsil nazirlikləri, eləcə də Futbol Federasiyasının təşkilatçılığı ən yüksək səviyyədə idi. Belə layihələr davamlı şəkildə təşkil olunacaq. Bu həm də Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının AFFA ilə əməkdaşlığının möhkəmlənməsi, uşaq futbolunun inkişafı yönündə atılan bir addımdır. Təşkilatçılığa görə bir daha bu layihədə əməyi keçən bir kəsə minnətdarlığımı bildirirəm".

## Əməkdaşlıq əlaqələri genişləndirilir

*"Kütləvi futbol həftəsi" başa çatdıqdan sonra Uzunoba Təlim-Məşq İdman Kompleksinin inzibati binasında Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının nümayəndələri ilə görüş olub.*

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı, AFFA-nın kütləvi futbol departamentinin müdiri Fərrux İsmayılovun rəhbərlik etdiyi nümayəndə heyəti və NFF-nin sədr müavini Sakit Rzayevin iştirakı ilə keçirilən görüşdə qonaqlara yenidənqurma işlərindən sonra istifadəyə verilən Ordubad şəhər stadionu və ümumilikdə, muxtar respublikamızda futbolun inkişafı üçün atılan addımlar və yaradılan əlverişli maddi-texniki baza haqqında ətraflı məlumat verilib. Mövcud imkanların Naxçıvan və ümumilikdə, Azərbaycan futbolu üçün əhəmiyyəti, uşaq futbolunun inkişafı, bölgədə futbolun kütləviliyi, bu sahədə həyata keçirilən təhsil və maarifləndirmə işləri, futzal və çimərlik futbolunun perspektivləri kimi mövzular müzakirə olunub, gələcək addımlarla bağlı fikir mübadiləsi aparılıb.

Həmçinin tərəflər arasında əməkdaşlıq əlaqələrinin uğurla davam və inkişaf etdirilməsi amili bölgənin futbol həyatı və gələcək potensialları baxımından yüksək qiymətləndirilib.

## Məşqçimiz kursda

*Bakı şəhərində AFFA tərəfindən qapıçılar üzrə məşqçilər üçün UEFA-nın "B" kateqoriyalı məşqçi kursunun III modulu keçirilib.*



Məşğələləri UEFA-dan Mart Poom və yerli təlimatçılar Faiq Əzizov və Vitali Kovalyov keçiblər.

Kursda Naxçıvan Futbol Federasiyasının qapıçılarla iş üzrə koordinatoru, eyni zamanda "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun qapıçı məşqçisi Amil Ağacanov da iştirak edir. Kurs 5 moduldan ibarət olacaq. Hər ay bir modulu keçiriləcək kursda qapıçı məşqçilərə əlavə olaraq tapşırıqlar veriləcək, praktik və nəzəri məşğələlər təşkil olunacaq. Son modulda isə kurs ərzində keçirilənlərlə bağlı imtahan götürüləcək. İmtahanı uğurla başa vuran məşqçilərə UEFA-nın "B" kateqoriyalı məşqçi lisenziyası veriləcək.

Eyni zamanda ötən gün AFFA məşqçilərin maarifləndirilməsi departamentinin qapıçılar üzrə təlimatçısı Üzeyir İbrahimov Naxçıvana gələrək tapşırığın praktik icrasını izləyərək müvafiq qeydlərini aparıb.

Qeyd edək ki, Amil Ağacanov Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının dəstəyi ilə kursa qatılıb.

**Ceyhun MƏMMƏDOV**

## *Tələbə Simfonik Orkestri* uğurlu çıxışı ilə yadda qalıb



Hər bir xalqın musiqi mədəniyyəti tarixində simfonik musiqinin özünəməxsus yeri var. Professional musiqi mədəniyyətinin təbliğində mühüm rol oynayan simfonik ifaçılığın inkişafına muxtar respublikamızda da xüsusi önəm verilir, bu istiqamətdə lazımi işlər görülür. Simfonik ifaçılığın inkişafının gələcək perspektivlərinin əsasında Naxçıvan Dövlət Universitetinin Konservatoriyası dayanır. Reallaşdırılan tədbirlər çərçivəsində bu il ali təhsil ocağının İncəsənət fakültəsinin təşkilatçılığı ilə Tələbə Simfonik Orkestri yaradılıb. Yaxın günlərdə həmin orkestrin maraqlı konsert proqramı təşkil olunub.

Fortepiano kafedrasının müəllimi Ülvi Əhmədovdan aldığımız məlumata görə, universitetin İncəsənət fakültəsinin və Naxçıvan Musiqi Kollecinin tələbələrindən təşkil olunan orkestrin aparıcı heyətlə birlikdə 75-dən çox üzvü var. Bədii rəhbəri universitetin Orkestr alətləri və dirijorluq kafedrasının professoru Çingiz Axundovdur.

Ülvi Əhmədov deyir ki, bir neçə ay konsertə hazırlıq məşqləri aparılıb və nəhayət, ilk konsert 18 sentyabr – Milli Musiqi Gününə həsr edilib. Böyük maraqla qarşılanan konsertin repertuarında Üzeyir Hacıbəylinin və onun yaratdığı bəstəkarlıq məktəbi ənənələrinin davamçıları Müslüm Maqomayev və Fikrət Əmirovun əsərləri səsləndirilib. Universitetin Konservatoriyasının qarşısında açıq havada keçirilən konsertdə Prezident mükafatçısı Sərxan Abdullayevin bədii rəhbərlik etdiyi "Buta" instrumental ansamblı, Prezident mükafatçısı Samir İsmayılov, Azərbaycan Respublikasının Əməkdar artistləri Gülyanaq Fərzəliyeva, Tural Nəcəfov, İncəsənət fakültəsi və Musiqi Kollecinin tələbələrindən ibarət vokal qrupu və fakültənin müəllim və tələbələrinin dahi bəstəkarın məşhur əsərlərindən ibarət ifaları da olub. Simfonik orkestrin ilk konserti universitetin rektoru Elbrus İsayev tərəfindən ali təhsil ocağının mədəni həyatında mühüm hadisə kimi yüksək qiymətləndirilib, tamaşaçılarda xoş ovqat yaradıb.

**Gülcamal TAHİROVA**

## Şahmatçılarımızdan uğurlu nəticə



Türkiyə Şahmat Federasiyasının təşkilatçılığı ilə 13-18 sentyabr tarixlərdə Kırşehirdə beynəlxalq turnir təşkil olunub.

Yarışda Naxçıvan Şahmat Federasiyasının yetirmələri də mübarizə aparıb və uğurlu nəticələr əldə ediblər. Qızlar arasındakı nəticələrə əsasən "A" qrupunda Nərin Babayeva (ümumi sıralamada 10-cu yer), "B" qrupunda isə qızlar arasında Nazlı Hümbətova (ümumi sıralamada 5-ci yer) qalib adını qazanıblar. "A" qrupunda mübarizə aparan digər təmsilçilərimiz Sadiq Qarayev (8-ci) və Ayxan Əliyev (9-cu) turniri ilk onluqda başa vurublar. Ərturan İsmayılov isə "B" qrupunun üçüncüsü olub. Zahid Allahverdiyev 14 yaşlılarda ikinci, Anar İbrahimzadə isə 10 yaşlılarda üçüncü sırada qərarlaşıb.

Sonda qalib idmançılarımız mükafatlandırılıblar.

## Karateçimizin növbəti qızıl medalı



Serbiyanın paytaxtı Belqrad şəhərində Beynəlxalq Məktəb İdmanı Federasiyasının (İSSF) təşkilatçılığı ilə Dünya Məktəblilərinin İdman Oyunları keçirilib.

Bu yarışda Azərbaycanın karateçilərdən ibarət milli komandası da iştirak edib və uğurlu nəticələr əldə ediblər. Milli komandanın üzvü, Naxçıvan Karate-do Federasiyasının yetirməsi Rəşid Süleymanov -63 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb.

Ümumilikdə, Azərbaycan millisi bu yarışda 1 qızıl, 3 gümüş və 2 bürünc olmaqla, ümumilikdə, 6 medal qazanıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Naxçıvan şəhəri, B.Abbasov küçəsi 156 ünvanında İsmayılov Həmzə Əli oğlunun adına olan 2491 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xələc kənd sakini Rzayev Fikrət İbrahim oğlunun adına olan JN-0040 inventar nömrəli, 10207038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Abdullayev Əli Sadıq oğlunun adına olan evin MH-0027897 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 786